*"Bu böyük bir planın, Azərbaycanı dağıtmaq, Azərbaycanı məhv etmək, Azərbaycan xalqını yox etmək planının tərkib hissəsidir. Təəssüf olsun ki, keçmiş dövrlərdə olduğu kimi, əsrlər boyu olduğu kimi, indi də Azərbaycanın öz içində xəyanətkarlar az deyil. Bu xəyanatkarlar Əlikram kimi adamları ortaya salır və Azərbaycanı parçalamq istəyirlər. Öz şəxsi mənsəblərinə çatmaq üçün, öz şəxsi məqsədlərinə nail olmaq üçün, vəzifə tutmaq üçün, hakimiyyətə gəlmək üçün".*

**Heydər ƏLİYEV,**
**Ümummilli Lider.**



# Dövlətçilik tariximizdə lider-xalq birliyinin unudulmayan səhifəsi

1993-cü ilin yayında yurdumuzun cənub bölgəsi çox çətin, ağır günlərini yaşayırdı. AXC-Müsavat cütlüyünün bacarıqsız, səriştəsiz rəhbərliyi üzündən regionda separatçı ünsürlərin baş qaldırması ictimai-siyasi gərginliyi artırırdı. Yaranmış qeyri-sabit vəziyyət yerli əhalini xeyli düşündürür, insanlar Lənkəran şəhərinin mərkəzi meydanına toplaşaraq hadisələri müzakirə edirdilər.

Separatçı qüvvələrin başçısı Əlikram Hümbətov yaranmış gərgin və böhranlı vəziyyətdən istifadə edərək iyunun 14-dən 15-nə keçən gecə bir qrup silahlı dəstə ilə Lənkəran Şəhər İcra Hakimiyyətinin binasını zəbt etdi. İyun ayının 15-də Lənkəran şəhər sovetinin sessiyası çağırıldı. Yetərsay olmadığından bəzi deputatlar avtomatlılar tərəfindən zorla evlərindən gətirildilər. Mövcud qanunlara məhəl qoyulmadan sessiyada Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsi Ə.Hümbətova həvalə olundu. Bundan sonra o şəhərin mərkəzində yerləşən hərbi hissəni də ələ keçirdi. İcra hakimiyyəti silahlı dəstələr tərəfindən qorunurdu.

Moskvanın "Vesti" proqramı Lənkəranda hakimiyyətin devrildiyi, Ə.Hümbətovun başçılığı ilə "Talış-Muğan respublikası" yaradıldığı barədə xəbər yaydı. İyun ayının 27-də şəhərin Ziyalılar evində Azərbaycan Xalqlarının Bərabərliyi Partiyasının konfransında qondarma qurumun qanunauyğun olmasını əsaslandırmağa çalışdılar və bununla bağlı təbriklər səsləndi.

Lənkəranda, Bakıda və digər rayonlarda bəzi adamlar öz ambisiyaları və şəxsi məqsədləri naminə Lənkəran kartından istifadə etmək üçün xeyli fəallaşmışdılar. Yerli əhali bu ideyanı qətiyyən dəstəkləmirdi. Tarixi köklərlə bir-birinə bağlı, qaynayıb qarışan, doğmalaşan lənkəranlılar, istər talış olsun, istər türk özlərini Azərbaycan xalqının tərkib hissəsi, Lənkəranı isə Azərbaycanın ayrılmaz parçası, alınmaz qalası hesab edirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev o günlərdə bölgədə baş verən hadisələri obyektiv şəkildə qiymətləndirmişdir: "Artıq bəllidir ki, son aylar Azərbaycan Respublikasının cənub zonasında olan rayonlarda, yəni Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar rayonlarında bəzi proseslər gedir. Bu proseslər həm o rayonların əhalisini, həm də Azərbaycanın ictimaiyyətini narahat edir, çünki bu proseslər neqativ xarakter daşıyır. Bu proseslər qanun pozuntuları ilə əlaqədardır, bəzi insanların hüquqlarını pozur və ümumiyyətlə, Azərbaycanda gərgin olan ictimai-siyasi vəziyyəti daha da gərginləşdirir".

Rayonun tanınmış ziyalıları, ağsaqqalları separatçıların qanunsuz əməllərinə kəskin etirazlarını bildirirdilər.

## 32 il əvvəl Lənkəran hadisələri zamanı bu vəhdət bir daha təsdiqini tapdı

Aşağı Nüvədi qəsəbə sakini, el ağsaqqalı mərhum Hacı Əliyev Əlikram Hümbətova üzbəüz etiraz etmişdi: "İxtiyar yaşındayam. İndiyə kimi ayrı-seçkilik görməmişəm. Talış, azərbaycanlı söhbəti heç təsəvvürə də gəlməyib. Təkcə Lənkəranda deyil, Masallıda, Astarada, Lerikdə və digər rayonlarda da belədir. Özümüzü bir torpağın, bir xalqın övladları saymışıq. Sənə kim ixtiyar verib ki, talışı Azərbaycana qarşı qoyasan, bu, talışlara qarşı düşmənçilikdir".

O çətin, taleyüklü dövrdə xarici və daxili düşmənlər birləşərək Azərbaycanı daxildən parçalmaq istəyirdilər. Cənub bölgəsində Əlikram Hümbətovun rəhbərlik etdiyi separatçı qüvvələr də həmin məqsədə xidmət edirdi. İyul ayının 9-da Ə.Hümbətovun təşəbbüsü ilə Lənkəran şəhər sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiyada Lənkəran valisinin və onun birinci müavininin seçkilərinin keçirilməsi barədə məsələ müzakirə olundu. Deputatların əksəriyyəti etirazlarını bildirsələr də avqustun 22-nə vali seçkiləri təyin olundu. İyulun 17-də daha bir növbədənkənar sessiyada "TMR"in "Xalq Məclisi"nə nümayəndələr seçildi. Qondarma qurumun rəhbəri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd mövqe tutaraq bölgədə at oynadır, insanları qanunsuz həbs edirir, onlara dəhşətli işgəncələr verirdi.

Lənkəranın bir qrup tanınmış, nüfuzlu ziyalısı mövcud vəziyyətlə əlaqədar iyulun 22-də Bakıda Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun qəbulunda oldu. Həmin gün axşam saat 10-da xalqımızın ümummilli lideri, müdrik dövlət xadimi, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin rəhbərliyi ilə respublikamızın güc nazirlərinin, dövlət qurumları nümayəndələrinin, cənub rayonlarından seçilmiş deputatların iştirakı ilə görüş keçirildi. Lənkəranı təmsil edən nümayəndələrdən Yaşar Rzayev, Səmədağa Səmədzadə və Həzi Əliyev mövcud vəziyyət, qondarma qurumun qanunsuz əməlləri barədə məlumat verdilər. Ölkə rəhbəri Heydər Əliyev cənub bölgəsində ictimai-siyasi sabitliyi bərpa etmək, vəziyyəti normallaşdırmaq üçün respublikanın güc strukturlarına konkret tapşırıqlar, göstərişlər verdi.

Avqust ayının 3-də sabiq baş nazir Surət Hüseynov Lənkərana gəldi. Şəhər mədəniyyət mərkəzində keçirilən müşavirədə bölgənin "iqtisadi problemləri" müzakirə olundu. Lakin bölgənin ağır ictimai-siyasi vəziyyətindən, yaranmış gərginlikdən, separatçı qüvvələrin qanunazidd əməllərindən bir kəlmə də danışılmadı. Həmin ayın 7-də N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının binasında qondarma qurumun "Ali Xalq Məclisi" çağırıldı. Cənub bölgəsinin rayonlarından hansı məqsədlə gəldiklərini bilməyənlərə mandat verib deyirdilər ki, siz "Ali Xalq Məclisi"nin nümayəndələrisiniz. Biləsuvardan və digər rayonlardan gələnlərin bir qismi etirazlarını bildirib zaldan çıxdılar. Lerikdən ağsaqqal ziyalı Şamil İsgəndərov, Biləsuvardan Akif Kazımov bu ideyanın əsassız olduğunu deyib qondarma qurumun rəhbərini yanlış yoldan çəkindirmək istədilər. Zaldakı etirazlara baxmayaraq Ə.Hümbətov qanunsuz qurumun "prezidenti" elan olundu. "Xalq Məclisi"nin sədri, müavinlər və "baş nazir" seçildi. Qondarma qurumun rəhbəri qanunsuz əməllərini davam etdirərək 1961-1992-ci illərdə buraxılmış rus rublunun Lənkəran zonasında işlənməsi, qondarma "TMR"in MDB-yə daxil olması, "TMR"in milli qəhrəmanı adının təsis olunması haqqında fərmanlar, sərəncamlar imzalayırdı. Bütün bunlar lənkəranlıların heysiyyətinə toxunur, insanlarda qəzəb, nifrət hissləri oyadırdı. Lənkəranda vali və onun birinci müavininə namizədlər rayonun şəhər, qəsəbə və kəndlərində seçicilərlə görüşür, təşviqat və təbliğat kampaniyası aparırdılar. "TMR" ideyasının əleyhinə çıxanlar isə təqibə, təzyiqlərə məruz qalırdılar. Lənkəranın, Cəlilabadın prokurorluq işçiləri, Astara rayonunun polis rəisi İbrahim Quliyev "bəy"in göstərişi ilə həbs olundu.

Lənkəran və ətraf rayonlar son dərəcə ağır günlər yaşayırdı. Bölgədə baş verən hadisələr təkcə yerli sakinləri deyil, respublika ictimaiyyətini dərindən narahat edirdi. Xalq şairlərindən Məmməd Araz və Bəxtiyar Vahabzadə, akademik Ziyad Səmədzadə, görkəmli tarixçi-alim, professor Musa Quluzadə və digər tanınmış ziyalılar Azərbaycan Konstitusiyasına, müstəqillik aktına zidd bir qurumun - "Talış-Muğan respublikası" adlı qondarma qurumun xalqımızın birliyinə sarsıdıcı zərbə, düşmən dəyirmanına su tökmək olduğunu bildirir, Vətənin dar günündə ölkəmizin müdrik rəhbəri Heydər Əliyevin ətrafında sıx birləşməyin vacibliyini qeyd edirdilər.

Avqust ayının 13-də Azərbaycan Respulikasının Ali Sovetində Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Astara, Yardımlı və Lerik rayonlarından seçilmiş xalq deputatları və həmin rayonlardan olan rəhbər işçilər və ziyalılarla görüş keçirildi. Görüşdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən, Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev Lənkəranda baş verən hadisələri geniş və ətraflı təhlil etdi: "Əlikram Hümbətovun hərəkətləri Azərbaycanın Konstitusiyasını, qanunlarını pozan hərəkətlərdir. Əlikram Hümbətovun ixtiyarında olan silahlı dəstələr qeyri-qanuni silahlı dəstələrdir. O silahlı dəstələri Əlikram Hümbətova verən adamlar Azərbaycan xalqına xəyanət ediblər. Ona görə də belə bir gərgin vəziyyət yaranıb. Bunların hamısına son qoyulmalıdır. Bunlara siyasi qiymət verilməlidir".

Görüşdə 26 nəfər çıxış edərək məsələyə öz münasibətini bildirdi. Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının sabiq sədri, mərhum Dilrüba Camalova, xalq deputatı Yaşar Rzayev və başqaları lənkəranlıların fikirlərini ifadə edərək qeyd etdilər ki, bu hadisələri Lənkəran camaatı ilə, Lənkəran rayonu ilə, o cümlədən Lənkəran bölgəsi ilə bağlamaq olmaz. Bunu ancaq bir qrup silahlı adamın törətdiyi hadisə kimi qiymətləndirmək lazımdır. Lənkəran camaatı hər hansı muxtar qurumun, hər hansı bir respublika yaranmasının əleyhinədir. Burada məqsəd adamları bir-birinə qarşı qoymaq, xalqı parçalamaqdır. Buna yol verilməyəcək.

Xalqımızın ümummilli lideri Heydər Əliyev görüşdə söylədiyi yekun nitqində cənub bölgəsinin əhalisini səfərbər olmağa, dövlətçiliyimiz qorumağa çağırdı: "Hamı bilsin ki, başqa yol yoxdur. Bu prosesə son qoyulmalıdır və beləliklə Azərbaycanda baş vermiş bu qeyri-qanuni proseslər tamamilə ləğv olunmalıdır. Neytral mövqe tutmaq, bitərəf qalmaq, laqeydlik göstərmək, yaxud yaxanı kənara çəkmək indi yaramaz". Lənkəranlılar cəmi bir neçə gündən sonra canı-qanı bahasına Azərbaycan dövlətçiliyini, ərazi bütövlüyünü qoruyaraq ölkəmizin azadlığı, müstəqilliyi, dövlətçiliyi uğrunda mübarizəyə həmişə hazır olduqlarını sübut etdilər.

**(davamı növbəti saylarımızda)**

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika .- 2025.- 13 avqust(№168).- S.5.